# Haqqa və poeziyaya sədaqətlə keçən 70 il

İyulun 4-də Atatürk Mərkəzində tanınmış şair Rəfail İncəyurdun 70 illik yubileyi münasibətilə tədbir keçirildi, "Bu da belə..." adlı şeirlər kitabı təqdim olundu.




Tədbiri akademik Nizami Cəfərov açdı. Qeyd etdi ki, R.İncəyurd yaşının bu çağında da arxasında çox zəngin bir irsin daynadığını bildiyindən daha inamla, daha cəsarətlə (və ərklə) yazıb-yaradır: "Onun şeirlərində başlıca amil və istiqamət etnoqrafizmdir; dünyaya gəldiyi Kəmərli kəndindən, İncə dərəsindən başlayan bu etnoqrafizm, sadəcə, yurd, el-oba təəssüratlarıyla yekunlaşmayıb, çox geniş bir coğrafi miqyas alır. Ancaq çıxış (və istinad) yenə də İncə dərəsidir. O, özünü İncə dərəsi "mühiti"nin, cəmiyyətiin mütəvazö bir üzvü saymaqla fəxr etsə də, şeirlərindən göründüyü kimi, şairlik iddiası elə də kiçik deyil. Və bu, Rəfail İncəyurdun, sadəcə, subyektiv istəklərindən, yaşantılarından irəli gəlmir, həm də mənsub olduğu etnoqrafik - intellektual (yaradıcı) mühitin xarakterinin ifadəsidir..."

Sonra ədəbiyyatşünas alimlərdən Rüstəm Kamal, Məti Osmanoğlu, tənqidçi Bəsti Əlibəyli, şair və yazıçılardan Ağacəfər Həsənli, İbrahim İlyaslı, Xaqani Qayıblı, Musa Ələkbərli, Yusif Nəğməkar, Mahmud Vəli, İlham Qazaxlı, Ayaz Arabaçı, Ehtiram İlham, AYB-nin katibi Elçin Hüseynbəyli, Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətinin sədri İlham Pirməmmədov və başqaları çıxış edərək yubilyarın yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən bəhs etdilər. Vurğulandı ki, o, həyatda görüb-götürdüklərini qələmə alır. İncə dərəsinin incə qəlbli şairidir. Səmimi olduğu qədər də sadə, ürəyi təmiz və təkəbbürdən uzaqdır. "Yaradıcılığının bir qolu öz davranışı, yaşam müdrikliyidir. İncə ruhlu İncəyurdun sevdalı müdrikliyi var. 70 Tanrıdan verilmiş poetik müdrikliyin qiymətidir". "70 ildir İncə dərəsi ilə dünya arasında yol gələn şairin özünə və oxucusuna hesabatının əsas mahiyyətini isə Haqqa sədaqət təşkil edir".

Sonda R.İncəyurd tədbir iştirakçılarına, yaradıcılığı barədə xoş ürək sözlərini dilə gətirən qələm dostlarına təşəkkürünü bildirdi, yeni şeirlərini oxudu.

**S.HÜSEYNOĞLU**